“Qeyri-formal məşğulluğa nəzarət” vahid elektron informasiya ehtiyatına inteqrasiyası tələb olunan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı”nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin
Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Məşğulluq haqqında” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 233 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram**:

1. “Qeyri-formal məşğulluğa nəzarət” vahid elektron informasiya ehtiyatına inteqrasiyası tələb olunan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 fevral 2020-ci il.

Azərbaycan Respublikası Prezidentinin
2020-ci il 25 fevral tarixli
Fərmanı ilə təsdiq edilmişdir

“Qeyri-formal məşğulluğa nəzarət” vahid elektron informasiya ehtiyatına inteqrasiyası tələb olunan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı

| Sıra №-si | İnformasiya sisteminin və ehtiyatının adı |
|---|---|
| 1 | 2 |
| 1. | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi üzrə |
| 1.1. | “Giriş-çıxış və qeydiyyat" idarələrarası məlumat-axtarış sisteminin “Azərbaycan Respublikası vətəndaşlarının şəxsiyyət vəsiqəsi” altsistemi |
| 2. | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi üzrə |
| 2.1. | “Əhalinin Dövlət Reyestri" avtomatlaşdırılmış qeydiyyat informasiya sistemi |
| 2.2. | “Sahibkarlıq Sahəsində Aparılan Yoxlamaların Vahid Məlumat Reyestri” informasiya sistemi |
| 2.3. | “Fərdi elektron pəncərə” elektron məlumat sistemi |
| 3. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi üzrə |
| 3.1. | Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi |
| 3.2. | Daşınmaz Əmlakın Qeydiyyatı, Kadastrı və İdarə Edilməsi Sistemi |
| 3.3. | Ünvan Reyestri İnformasiya Sistemi |
| 4. | Azərbaycan Respublikasının Energetika Nazirliyi üzrə |
| 4.1. | Energetika Nazirliyi tərəfindən verilən icazələr üzrə informasiya ehtiyatı |
| 5. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə |
| 5.1. | Mərkəzləşdirilmiş Elektron İnformasiya Sistemi |
| 6. | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi üzrə |
| 6.1. | İcazələrin verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə elektron informasiya sistemi |
| 7. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi üzrə |
| 7.1. | Milli Təhsil Məlumat Bazası |
| 8. | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi üzrə |

| | |
|---|---|
| 8.1. | Tibb kadrlarının vahid reyestri |
| 9. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi üzrə |
| 9.1. | Kənd təsərrüfatı subyektlərinin informasiya və monitorinq sistemi |
| 9.2. | Kənd təsərrüfatı məhsulları istehsalçılarının qeydiyyat sistemi |
| 10. | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi üzrə |
| 10.1. | Verilmiş status sənədləri üzrə informasiya ehtiyatı |
| 11. | Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi üzrə |
| 11.1. | Gömrük xidmətinin vahid avtomatlaşdırılmış idarəetmə sistemi |
| 12. | Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi üzrə |
| 12.1. | Azərbaycan Respublikasının Dövlət Qulluqçuları Reyestri |
| 12.2. | "Tələbə-məzun" dövlət elektron məlumat sistemi |
| 12.3. | "Şagird-məzun" dövlət elektron məlumat sistemi |
| 13. | Dövlət Miqrasiya Xidməti üzrə |
| 13.1. | Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi |
| 14. | İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi üzrə |
| 14.1. | İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin icbari tibbi sığorta sahəsində vahid elektron informasiya sistemi |
| 15. | Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi üzrə |
| 15.1. | Əmək Münasibətlərinin Monitorinqi Mərkəzinin "Analitik Monitorinq Sistemi" |
| 16. | "Azərsu" Açıq Səhmdar Cəmiyyəti üzrə |
| 16.1. | "Azərsu" ASC-nin Abonent Sistemi və Coğrafi İnformasiya Sistemi |
| 17. | "Azərişıq"Açıq Səhmdar Cəmiyyəti üzrə |
| 17.1. | "Azərişıq" ASC-nin abunəçiləri üzrə "Əhali" abunə informasiya bazası |
| 18. | Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyi üzrə |
| 18.1. | Qaz abunəçiləri üzrə informasiya ehtiyatı |